## *31 iyul Dövlət Sərhəd Xidmətinin yaranması günüdür*

# Vətənə sədaqət müqəddəs anddır

**XX əsrin sonlarında müstəqilliyini bərpa etmiş Azərbaycan üçün dövlət sərhədlərinin qorunması taleyüklü məsələlərdən idi. Çünki Sovet İttifaqı dağıldıqdan sonra ölkəmizin sərhəd xətti açıq idi. Ermənistanla münaqişə, daxili çətinliklər, bölgədəki mürəkkəb geosiyasi vəziyyət ilk növbədə sərhədlərin mühafizəsini labüd etmişdi.**

Lakin ötən əsrin 90-cı illərinin əvvəllərində ölkədə siyasi böhran, idarəetmədə xaos, silahlı qruplaşmaların azğınlığı, zəif dövlət strukturları buna mane olurdu. 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdan Ümummilli Lider Heydər Əliyev sərhədlərin təhlükəsizliyini dövlətin dayaqlarının möhkəmləndirilməsində əsas prioritetlərdən biri olaraq müəyyənləşdirdi. Dövlət başçısının təşəbbüsü ilə sərhədlərin bərpası, peşəkar sərhədçi kadrların hazırlanması, sərhəd bölgələrində sabitliyin qorunması istiqamətində genişmiqyaslı işlər görüldü. Sərhəd qoşunlarının təşkilati strukturu yaradıldı, sərhəd zastavaları bərpa olundu, mühafizə hazırlığına diqqət artırıldı. Bütün bunlarla bərabər, sərhədlərin müstəqil şəkildə, yüksək səviyyədə qorunması üçün ayrıca güc strukturu formalaşdırmaq zərurəti yaranmışdı.

**(davamı 4-cü səhifədə)**




# Vətənə sədaqət müqəddəs anddır



(əvvəli 1-ci səhifədə)

Sərhədlərin mühafizəsini dövlətin suverenliyinin və müstəqilliyinin əsas amili hesab edən ulu öndər Heydər Əliyevin 2002-ci il 31 iyul tarixli Fərmanına əsasən Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) yaradıldı. Bu tarixi fərmana qədər sərhədlərin mühafizəsi müxtəlif qurumların tabeliyində həyata keçirilirdi. DSX-nin yaradılması ilə Azərbaycan Respublikasının dövlət sərhədlərinin qorunması, sərhəd pozuntularının qarşısının alınması, qaçaqmalçılıqla mübarizə, sərhəd-keçid məntəqələrinin fəaliyyətinin tənzimlənməsi kimi vacib sahələr mərkəzləşdirildi. Ulu Öndər sərhəd bölgələrinin də sosial-iqtisadi inkişafına xüsusi diqqət yetirirdi. Sərhədlərin mühafizəsi həm hərbi tədbirlər, həm də sərhəd kəndlərinin, rayonların gücləndirilməsi ilə paralel aparılırdı. Bu baxımdan, sərhəd bölgələrində yeni yaşayış məntəqələrinin, məktəblərin tikilməsi, yolların salınması, əhalinin həmin ərazilərdəyaşaması sərhədin etibarlı şəkildə qorunması siyasətinin əsastərkib hissəsi idi. Ulu öndərin düşünülmüş sərhəd siyasəti müstəqil Azərbaycanın təhlükəsizliyinin təməl daşlarından biri oldu. Dahi lider sərhəd təhlükəsizliyinin müasir dövlətçilikdəki roluna xüsusi əhəmiyyət verirdi və bunun nəticəsidir ki, bu gün Azərbaycan sərhədləri etibarlı əllərdədir, sərhədçilərimiz gecə-gündüz Vətənin keşiyində ayıq-sayıq dayanırlar.




Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Sərhəd Mühafizəsi son 22 ildə böyük inkişaf yolu keçib. Şimal və şimal-qərb sərhədlərində müasir sərhəd mühafizə infrastrukturu, sərhəd aviasiyası, sahil mühafizəsi yaradılıb, dövlət sərhədinin mühafizəsində peyk texnologiyaları tətbiq olunub, sərhəd məntəqələrində radiolokasiya sistemləri, səyyar və stasionar müşahidə və elektron-optik vasitələrdən istifadə edilir, xidmətdaxili rəqəmsal informasiya sistemi formalaşdırılıb. Su sərhədlərinin mühafizəsi məqsədilə Sahil Mühafizə Xidmətləri də DSX-nin tərkibində fəaliyyət göstərir. Sərhəd zolaqlarında yeni texniki müşahidə sistemləri, sərhəd zastavaları, nəzarət məntəqələri inşa olunub. Sərhədçilər müasir silahlar, rabitə sistemləri və avadanlıqlarla təchiz ediliblər.

2007-ci ildə Prezident İlham Əliyevin qərarı ilə Dövlət Sərhəd Xidməti Akademiyası, 2011-ci ildə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə DSX-nin tərkibində xüsusi təyinatlı tam orta təhsil müəssisəsi - Xüsusi Məktəb yaradılıb. Heydər Əliyev Fondunun dəstəyilə bu təhsil ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsi sayəsində Dövlət Sərhəd Xidmətində mükəmməl hərbi təhsil sistemi formalaşdırılıb. Müstəqil dövlətimizə, dövlətçiliyimizə sədaqətlə xidmət edən vətənpərvər sərhədçi zabit heyəti yetişdirilib. Bu, 2016-cı ilin Aprel döyüşlərində düşmənin mövqelərinin, dislokasiya yerlərinin, komanda-dayaq məntəqələrinin, qərargahların qısa müddət ərzində darmadağın edilməsində, 2018-ci ildə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən Qazax-Ağstafa rayonları ərazisində Azərbaycan-Ermənistan dövlət sərhədinin mühafizəsinin sərhədçilərə həvalə edilməsində, bütün bunların fonunda 30 illik erməni işğalına son qoyulan Vətən müharibəsində özünü bariz şəkildə göstərdi. Azərbaycan sərhədçiləri dövlət sərhədinin mühafizəsi ilə bərabər, həm də ölkəmizin ərazi bütövlüyünün qorunmasında, düşmən təxribatlarının qarşısının alınmasında, qaçaqmalçılıqla mübarizədə böyük rol oynayırlar.

2020-ci il 27 sentyabr tarixində Ermənistanın növbəti hərbi təxribatına cavab olaraq başlanan və 44 gün davam edən Vətən müharibəsi şanlı tariximizdə əsl qəhrəmanlıq salnaməsinə çevrildi. İkinci Qarabağ müharibəsində döyüş əmrini alan Dövlət Sərhəd Xidməti dərhal bütün qüvvə və vasitələrini tam səfərbər etdi. Azərbaycan Silahlı Qüvvələrinin tərkibində Dövlət Sərhəd Xidmətinin (DSX) şəxsi heyəti, xüsusilə də xüsusi təyinatlı dəstələri döyüş meydanında yüksək peşəkarlıq, cəsarət və qəhrəmanlıq nümayiş etdirərək ölkənin ərazi bütövlüyünün və dövlət sərhədlərinin bərpasında fəal iştirak etdi. Hərbi əməliyyatlar nəticəsində təkcə hərbi-strateji əhəmiyyət daşıyan mövqelər deyil, həm də sərhəd təhlükəsizliyi baxımından mühüm ərazilər Azərbaycanın nəzarətinə keçdi. DSX-nin xüsusi təyinatlıları Qubadlı və Laçın rayonları istiqamətində ağır relyef və çətin iqlim şəraitində döyüşlərdə şücaət göstərdilər. Düşmənin uzun illər ərzində qurduğu istehkamları yararaq irəliləyən sərhədçilər strateji yüksəklikləri azad etdilər, mühüm nəqliyyat yollarını nəzarətə götürdülər.

Dövlət Sərhəd Xidməti Vətən müharibəsində əsas döyüş birləşmələrindən biri kimi çıxış edərək, dövlət sərhədlərinin və ərazi bütövlüyünün bərpasında tarixi missiyasını uğurla yerinə yetirdi. Zəngilanın işğaldan azad olunması ilə Azərbaycan-İran dövlət sərhədinin 132 kilometrlik hissəsi tam nəzarətə götürüldü. Prezident İlham Əliyev bu barədə xalqa müraciətində demişdir: "Zəngilan rayonunun azad olunmasında xüsusi təyinatlı sərhədçilər iştirak ediblər. Bu gün Azərbaycan-İran sərhədinin böyük hissəsi tam nəzarətimiz altındadır. Dövlət Sərhəd Xidmətinin döyüş qabiliyyəti yüksəkdir, sərhədçilərimiz böyük qəhrəmanlıq göstəriblər". Dövlət Sərhəd Xidmətinin xüsusi təyinatlıları Zəngilan uğrunda gedən hərbi əməliyyatlarda strateji mövqelərin ələ keçirilməsində, nəinki sərhədlərimizin bərpası, həm də dövlətimizin təhlükəsizliyinin gücləndirilməsində misilsiz qəhrəmanlıq göstərdilər. Onlar ən çətin istiqamətlərdə döyüşərək bir çox ərazilərimizi işğaldan azad etdilər. DSX-nin "Harop," "Quzğun" və "Hermes" pilotsuz uçuş aparatlarıvasitəsilə düşmənin strateji əhəmiyyətli döyüş texnikaları, zenit-raket kompleksləri, o cümlədən 8 ədəd "S-300" raket kompleksi, tankları, zirehli döyüş maşınları, komanda-idarəetmə məntəqələri, ümumilikdə 291 düşmən hədəfi zərərsizləşdirildi. Havada və döyüş meydanında üstünlüyü tam ələ alan pilotsuz uçuş aparatları sayəsində düşmən darmadağın edildi. Müharibə zamanı sərhədçilərimiz yalnız döyüş meydanında deyil, həm də azad edilmiş ərazilərdə dövlət sərhədlərinin qurulması və mühafizəsinin təşkilində böyük hünər göstərdilər.

İkinci Qarabağ müharibəsində böyük məğlubiyyətə uğrayan, "yenilməz" ordusu Azərbaycanın mərd, qəhrəman oğulları qarşısında diz çöksə də Ermənistan təxribat əməllərinə son qoymadı. 2020-ci il noyabrın 10-da imzaladığı kapitulyasiya aktının müddəalarını yerinə yetirməkdən boyun qaçıraraq Azərbaycanın tərkib hissəsi olan Qarabağla Ermənistan arasında yerləşən Laçın dəhlizi ilə separatçıları, xuntaçıları canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrlə təmin edirdi. 2023-cü il aprelin 23-də Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən ölkəmizin suveren ərazilərində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında "Laçın" dövlət sərhədində buraxılış məntəqəsi quruldu və fəaliyyətə başladı. Prezidenti İlham Əliyev Cəbrayıl və Zəngilan rayonlarında olarkən demişdir: "Bu gün müzəffər Azərbaycan Silahlı Qüvvələri qarşıda duran bütün vəzifələri icra edir. Eyni zamanda, sərhədçilərimiz hazırda işğaldan azad edilən ərazilərdə Azərbaycan-Ermənistan sərhədini də qoruyur… Biz öz sərhədimizi qoruyuruq və bundan sonra da qoruyacağıq. Hər bir ölkənin sərhədi onun dövlət rəmzlərindən biridir. Azərbaycan öz sərhədlərini, ərazi bütövlüyünü tam bərpa edib. Bizim Silahlı Qüvvələrimiz rəşadət, qəhrəmanlıq göstərərək Vətən müharibəsində Zəfər çaldılar. Sərhədçilərin ümumi zəferimizdə rolu çox böyükdür. Mən bunu qiymətləndirirəm".




Müasir müstəqil Azərbaycanın banisi Ulu Öndər Heydər Əliyevin düşünülmüş siyasəti ilə yaradılan və qısa müddətdə müasir, çevik, güclü struktura çevrilən Dövlət Sərhəd Xidməti dövlətçiliyimizin sarsılmaz dayaqlarından biridir. DSX ölkəmizin sərhədlərinin etibarlı şəkildə qorunması, milli təhlükəsizliyin təmin olunması və beynəlxalq hüquq normalarına uyğun sərhəd siyasətinin həyata keçirilməsində əvəzsiz rol oynayır. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu sahədə həyata keçirilən əsaslı islahatlar və sərhəd mühafizəsinin müasir standartlara uyğunlaşdırılması Xidmətin fəaliyyətini yeni mərhələyə yüksəldib. Peşəkarlığı, yüksək nizam-intizamı, vətənpərvərlik ruhu ilə seçilən sərhədçilərimiz dövlətçiliyimizə yorulmadan xidmət edir, Vətən sərhədlərini göz bəbəyi kimi qoruyurlar. Vətənə sədaqət bu ali missiyanı yerinə yetirən ayıq-sayıq, mübariz sərhədçilərimizin müqəddəs andıdır.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**